**Məxfilik Siyasəti**

## İÇİNDƏKİLƏR


Biz Kimik

Haqqınızda Verəcəyiniz Məlumatlar

Haqqınızda Toplaya Biləcəyimiz Digər Məlumatlar

Digər Mənbələrdən Əldə Etdiyimiz Məlumatlar

Çərəzlər

Məlumatlarınızın İstifadə Olunması

Şəxsi Məlumatlarınızı Harada Saxlayırıq

Giriş, Nəzarət və Sizin Hüquqlarınız

Uşaqlar üçün Online Məlumat Siyasəti

Ümumi Məlumatların Qorunması Qaydaları

Kaliforniya İstehlakçı Məxfiliyi Qanunu

Məxfilik Siyasətimizdəki Dəyişikliklər

Mübahisəli Məsələlərin Həlli Siyasəti

Bizimlə Əlaqə Yaradın


**RƏSMİ BİLDİRİŞ:** Məxfilik Bildirişinə sahib olan Forever Living Products (FLP) Ailəsinə aid internet saytlarının hər hansı birinə daxil olmaqla, Siz bu Məxfilik Bildirişində göstərilən işləmləri qəbul edir və razılaşırsınız.

## BİZ KİMİK?

Baş ofisi Arizonanın Skotsdeyl əyalətində yerləşən, 1978-ci ildə əsası qoyulmuş FLP dünyada Aloe Veranın ən böyük yetişdiricisi, istehsalçısı və paylayıcısıdır. 160 ölkədə fəaliyyət göstərən FLP məhsulun tarladan fabrikə, araşdırma və inkişafa, qablaşdırmağa, daşıma və paylamağa qədər bütün prosesi özü idarə edərək şaquli istiqamətdə inkişaf etmişdir. FLP-nin xüsusi məhsulları dünyadakı bütün insanlara onların daha yaxşı görünmələri və hiss etmələri üçün kömək olmuşdur. FLP haqqında daha ətraflı məlumat əldə etmək üçün www.foreverliving.com saytına daxil ola bilərsiniz.

Zəhmət olmasa, şəxsi məlumatlarınıza bizim görüşümüzü və şəxsi məlumatlarınıza necə münasibət göstərəcəyimizi başa düşmək üçün aşağıdakı Məxfilik Bildirişini diqqətlə oxuyun.

### Haqqınızda Verəcəyiniz Məlumatlar

Xidmətlərimizdən istifadə edərkən mümkün olan ən yaxşı imkanlardan yararlanmanız üçün haqqınızda bizə bildirdiyiniz aşağıdakı məlumatları toplamalı və prosesə tətbiq etməliyik. Heç bir halda şəxsi məlumatlarınızı başqalarına bildirmirik. Şəxsi məlumatlar aşağıda göstərilmişdir:

Ad və Soyad

Ünvan(lar)

Telefon nömrələri

E-mail

Doğum tarixi

Ödəmə məlumatları (Kredit kart məlumatları)

Bank Hesabı Məlumatları

Sifariş Məlumatı

Şəxsiyyət Vəsiqəsi Nömrəsi/Vergi ID

Şəxsi Xarakteristika

İmza(lar)

Həyat Yoldaşının Adı

Həyat Yoldaşının Məlumatları

Müştəri Xidməti Telefon Zəng Qeydləri

Şəkil

Sizi birbaşa və ya dolayı tanıdan digər məlumatlar

Digər şəxsi məlumatlar və şəxsi məlumatlardan ibarət sənədlər bonusları yönləndirmək məqsədilə zaman zaman toplana bilər. Bu məlumat kateqoriyası müəyyən vəzifələri yerinə yetirməklə bizə verdiyiniz məlumatdır.

- FLP internet səhifəsindən Forever İş Sahibi (FBO) və ya Novus Customer (NC) kimi FLP-yə qoşulmaq üçün müraciət;
- FLP internet səhifəsindən məhsul satın almaq və ya sifariş vermək;
- Hər hansı bir müsabiqə, təqdimat və ya sorğuya qatılmaq;
- Forumlarda iştirak etməklə və ya xidmətlər və məhsullar haqqında şərh və rəylər bildirməklə FLP internet səhifəsinin interaktiv tərəflərinə qatılmaq;
- FLP internet səhifəsindən məlumat sorğusu göndərmək;
- FLP internet səhifəsində yaranan hər hansı problemi bildirmək və ya
- Marketinq materialları əldə etmək üçün razılıq vermək;

FLP Sizin şəxsi məlumatlarınızı işinizlə əlaqəli prosesin asanlaşdırılması və ya sizin adınıza həyata keçirilən maliyyə əməliyyatları istisna olmaqla başqa şirkət və ya satıcı ilə paylaşmayacaq.

Üçüncü tərəfə verilən şəxsi məlumat üçün bu Məxfilik Bildirişi yalnız şəxsi məlumatlarınızı əldə etdikdən sonra Sizin şəxsi məlumatınıza tətbiq olunacaqdır.

**Haqqınızda Toplaya Biləcəyimiz Digər Məlumatlar**

FLP internet səhifələrinə hər dəfə daxil olduğunuzda aşağıdakı məlumatları toplaya bilərik:

- Komputerinizi internetə qoşmaq üçün istifadə etdiyiniz IP ünvanı, giriş məlumatları, brauzer növü və versiyası, saat qurşağının nizamlanması, brauzerə qoşulma növü və versiyası, əməliyyat sistemi və platforması daxil olmaqla texniki məlumatlar;
- URL (Uniform Resource Locators), internet səhifəmizdən klikləmə (vaxt və zaman daxil olmaqla), səhifənin aktiv olduğu zamanlarda baxdığınız və axtarış etdiyiniz məhsullar, yükləmə zamanı baş vermiş xətalar, müəyyən səhifələrə giriş müddəti, qarşılıqlı səhifə məlumatı (klikləmələr), səhifəyə göz gəzdirmək üçün istifadə olunan üsullar, bizim müştəri xidməti nömrəmiz ilə əlaqə saxlamaq üçün istifadə olunan telefon nömrəsi və bizimlə əlaqə saxlamaq üçün istifadə olunan e-mail ünvanı məlumatları.

**Digər Mənbələrdən Əldə Etdiyimiz Məlumatlar**

Biz, üçüncü tərəflə yaxından çalışa bilər (məs: iş ortaqları, texniki, maliyyə və təslimat xidməti, reklam şəbəkələri, analitik provayderlər, axtarış məlumat provayderləri daxil) və sizin haqqınızda bu provayderlərdən məlumat əldə edə bilərik. Bu provayderlərdən sizin haqqınızda məlumat əldə etdiyimiz zaman və bu məlumatı hansı məqsədlə istifadə etdiyimiz haqda sizi xəbərdar edəcəyik.

**Çərəzlər**

Çərəzlər – internetdən göndərilən kiçik ölçülü məlumatlardır və istifadəçinin məlumatı xatırlamaq və ya istifadəçinin axtarış fəallığını (məs: onlayn mağazadan səbətə əlavə edilmiş məhsul) yaddaşda saxlamaq üçün istifadəçinin komputerində toplanır.

Bir çox axtarış brauzerindəki "Yardım" düyməsi brauzerin çərəzlərindən gələn yeni məlumatları qəbul etməsinin qarşısını necə almasını, brauzerinizin yeni bir mesaj aldığınızda sizi necə məlumatlandıracağını və ya kukiləri tamamilə bağlamağı göstərir. Əlavə olaraq, siz brauzerin əlavələrində istifadə olunan eyni məlumatları bağlaya və ya silə bilərsiniz (məs: Flash cookies - əlavələrin parametrlərini dəyişərək və ya istehsalçısının internet ünvanına daxil olaraq).

Faylların FLP-nin mühüm funksiyalarını istifadə etməyə imkan yaratdığına görə onları aktiv saxlamağı məsləhət görürük.

**Məlumatlarınızın İstifadə Olunması**

İstifadəçilər, FBO-lar və müştərilərimiz haqqında məlumat biznesimizin mühüm hissəsidir və bunu başqalarına bildirmək ixtiyarımız yoxdur. Biz şəxsi məlumatı yalnız aşağıda göstərildiyi şəkildə və yardımçılarla bölüşürük. Aşağıda göstərilən hallara əsasən biznes fəaliyyətimizi idarə etmək üçün sizin şəxsi məlumatınızı açıqlamaq hüququmuzun olduğu ilə razılaşarsınız:

- **Şəxsi Məlumatların Açıqlanması:** Biz qanuni biznes fəaliyyətimizi effektiv şəkildə idarə etmək üçün biznesin müxtəlif sahələrində sizin məlumatlarınızın saxlanması və açıqlanmasını mütləq şəkildə tələb edirik.
- **Biznes Məqsədli Məlumatlar:** Məhdud şəxsi məlumatlar yalnız FLP biznes imkanından yararlanan və ya bu imkanlardan yararlanmaq istəyən şəxslərlə paylaşıla bilər. (Məs: Adınız və ya FBO statusunuz hər hansı təqdimatda göstərilə bilər və ya yuxarı ya da aşağı qrup xəttində olan FBO bu haqda məlumat əldə edə bilər). Əgər FBO-luğunuzu ləğv etsəniz, bu məlumatlar silinəcək və daha paylaşılmayacaqdır.

- **Üçüncü Tərəf Xidmət Təminatçıları:** Adımızdan bütün tapşırıqları yerinə yetirmək üçün başqa şirkət və şəxslərlə əməkdaşlıq edirik. Buraya poçt sənədlərinin və elektron məktubun göndərilməsi, təkrarlanan məlumatların müştəri siyahılarından çıxarılması, məlumatların təhlil edilməsi, marketinq ilə bağlı yardım göstərmək, edilən axtarışların nəticələri və linkləri ilə təmin etmə, kredit kart ödəmələrinin həyata keçirilməsi və müştəri xidmətinin təmin edilməsi daxildir. Bu provayderlərin müqavilədə göstərilən şərtlərə uyğun olaraq öz funksiyalarını həyata keçirmək üçün şəxsi məlumatı əldə etməyə hüquqları vardır, lakin digər məqsədlər üçün istifadəsinə icazə verilmir.

- **Promosyon Təklifləri:** FLP razılığınız olmadan sizin şəxsi məlumatlarınızı üçüncü şəxsə bildirə, dəyişiklik edə və ya istifadə edə bilməz. Bəzən FLP təqdim etdiyi məhsullar və xidmətlər, onlara edilən dəyişikliklər barədə məlumat vermək üçün sizə təkliflər və tanıtım materialları göndərə bilər. Fərdi şəxslər bu tanıtımlardan internet ünvanından, elektron məktub göndərməklə və ya +994 12 465 43 96 telefon nömrəsi ilə əlaqə saxlamaqla istənilən vaxt imtina edə bilərlər.
- **FLP-nin və Digər Şəxslərin Qorunması:** Qanunla təsdiq olunduğu zaman hesab və digər şəxsi məlumatlar göstərilir; istifadə şərtlərimiz və digər razılaşmaları tətbiq edirik; və ya FLP, bizim müştərilərimiz və başqalarının hüquqlarını, əmlakını və ya təhlükəsizliyini qoruyuruq. Buraya saxtakarlıqdan qorunmaq və kredit riskini azaltmaq üçün digər şirkət və təşkilatlarla məlumatların mübadiləsi daxildir. Ancaq, məlumdur ki, Məxfiliklə bağlı Bildirişdə göstərilən öhdəlikləri pozaraq ticarət məqsədi üçün müştərilərin şəxsiyyətini müəyyənləşdirən məlumatı satmaq, bölüşmək və ya başqa formada açıqlamaq daxil deyildir.
- **İcazənizlə:** Yuxarıda göstərilənlərdən başqa, haqqınızdakı məlumatlar digər üçüncü tərəfə bildirildiyi təqdirdə sizə bildiriş gələcəkdir və sizin həmin məlumatları bölüşməmə imkanınız vardır.

**Şəxsi Məlumatlarınızı Harada Saxlayırıq**

Məlumatlarınız bir FLP foreign entity-də toplanarsa, sizdən topladığımız məlumatlar Avropa İqtisadi Zonası daxilində fəaliyyət göstərən şəxs tərəfindən saxlana və istifadə oluna bilər. Ayrıca, sizdən topladığımız məlumatlar Avropa İqtisadi Zonası xaricində bir yerə, Amerika Birləşmiş Ştatlarındakı bir zonaya göndərilə və burada saxlana bilər. Buraya sifarişlərinizin tamamlanması, ödəniş məlumatlarınızın işlənməsi və dəstək xidmətlərinin təmin edilməsi həyata keçirən heyət daxildir. Şəxsi məlumatlarınızı təqdim etməklə onun ötürülməsinə, saxlanmasına və işlənməsinə razılıq vermiş olursunuz.

Bununla bərabər, məlumatlarınızın AİZ-nin daxilində mövcud olan bəzi qurumlar da daxil olmaq üzərə digər FLP foreign entity-s verilməsi lazım olan başqa vəziyyət ola bilər. Məs: bir FBO xarici bir ölkəyə beynəlxalq sponsorluq etdiyində, FLP-nin İş Planına uyğun olaraq kompensasiya vermək üçün bəzi məlumatlar FLP-nin xarici təşkilatları ilə (foreign entities) bölüşüləcəkdir. Hər hansı bir FBO məlumatı bütün tətbiq olunan qayda və qanunlara uyğun olaraq digər xarici təşkilatlarla paylaşılacaq, ancaq məlumatların qorunması məxfilik qanunları və qaydaları ilə məhdudlaşmır (2016/679 saylı Ümumi Məlumatların Qorunması Qaydası (AB) kimi).

Şəxsi məlumatlarınızı göndərərək hər hansı bir qanuni iş məqsədi ilə hər hansı bir FLP entity tərəfindən köçürülməsi, toplamması və ya işlənməsi ilə razılaşırsınız.

1) Məlumatlarınızın güvənli bir şəkildə və bu Məxfilik Siyasətinə uyğun olaraq həyata keçirilməsini təmin etmək və (2) məlumatlarınızın toplandığı qeydlərin daxili Qlobal Qeydlərin Saxlanması Siyasətimizə uyğun olaraq saxlanmasını və ya ləğv edilməsini təmin etmək üçün uyğun olan bütün lazımi addımları atacağıq. Şəxsi məlumatları yalnız tələb etdiyiniz Xidmətləri təmin etmək üçün lazımi qədər və daha sonra müxtəlif hüquqi və ya kommersiya məqsədilə təmin edəcəyik. Bunlar: (1) qanun, müqavilə və ya kommersiya fəaliyyətlərimiz üçün tətbiq olunan oxşar öhdəliklərə əsasən (2) qanuni/müqaviləyə əsaslanan hüquqlarımızı qorumaq, həll etmək, müdafiə etmək və ya tətbiq etmək üçün və ya (3) yetərli və doğru iş və maliyyə qeydlərinin aparılması üçün lazımi saxlama müddətlərini nəzərdə tutur.

Bizə təqdim etdiyiniz bütün məlumatlar etibarlı serverlərdə saxlanılır. Məlumatlarınızı qorumaq üçün müxtəlif növ proqramlar, təhlükəsizlik və nəzarət vasitələrindən istifadə edirik. Bütün ödəniş əməliyyatları Etibarlı Giriş Qatı (EGQ) texnologiyasından istifadə olunaraq şifrələnəcəkdir. Kredit kartı məlumatını sistemə daxil edərkən Ödəniş Kartları Bölməsi Məlumatın Təhlükəsizliyi Standartını izləyirik. Sizə sistemin müəyyən bölmələrinə giriş etmək üçün şifrə verdikdə (və ya şifrə təyin etmə bölməsi təqdim etdiyimizdə) bu şifrəni gizli saxlamağa məsuliyyət daşıyırsınız. Şifrənizi başqaları ilə bölüşməməyinizi tövsiyə edirik. Başqaları ilə ortaq kompüter istifadə edirsinizsə, əməliyyatı tamamladıqdan sonra hesabdan çıxış etməyi unutmayın.

Təəssüf ki, internet vasitəsilə məlumatın köçürülməsi tamamilə təhlükəsiz deyildir. Sizin şəxsi məlumatınızı qorumaq üçün əlimizdən gələni edəcəyimizə baxmayaraq, saytımıza ötürülən məlumatınızın təhlükəsizliyinə zəmanət verə bilmirik; hər hansı pul köçürməsinin məsuliyyəti sizə aiddir. Məlumatlarınızı əldə etdikdən sonra icazəsiz girişin qarşısını almaq üçün ciddi prosedurlar və təhlükəsizlik tədbirlərindən istifadə edəcəyik.

**Giriş, Nəzarət və Sizin Hüquqlarınız**

Qeydiyyat prosesi müddətində hesab açsanız siz haqqınızdakı müəyyən məlumatı və FLP ilə qarşılıqlı əlaqənizi görə, yeniləyə və silə bilərsiniz. Sifariş təsdiq nömrəsi vardırsa, sifarişinizi dəyişə və yeniləyə bilərsiniz. Məlumatlarınıza daxil ola və ya yeniləyə bilmirsinizsə, yardım üçün həmişə FLP ilə əlaqə saxlaya bilərsiniz.

Sizə verilmiş hüquqları yerinə yetirmək və ya müzakirə etmək istəyirsinizsə, Məxfiliklə bağlı Bildirişin "Bizimlə Əlaqə Saxlayın" bölməsindəki hər hansı əlaqə vasitələrindən istifadə edərək bizə məlumat verməyinizi xahiş edirik. Məlumatlarınızı təsdiq etmək üçün etibarlı şəxsiyyət vəsiqəsini təqdim edin(hər hansı Məxfiliyin Təsdiqlənməsi Formasının doldurulması kimi). Hüquqlarınız yaşadığınız ünvana görə müəyyən olunur. Məs: Əgər siz Avropa Birliyi ölkələrində yaşayan birisinizsə, o zaman Ümumi Məlumatın Qorunması Qanunu tətbiq oluna bilər və hüquqlarınız aşağıda göstərilmişdir:

- Haqqınızda topladığımız məlumatlara daxil olmaq hüququ
- Məlumatlarda düzəliş etmə, silmə, məhdudlaşdırma, etiraz etmə hüququ
- İstənilən vaxt razılaşmadan geri çəkilmə hüququ
- Hər hansı nəzarət orqanına şikayət vermək hüququ
- Lazımi məlumatla təmin etməkdə əldə etdiyiniz uğursuzluğun nəticəsini bilmək hüququ
- Yalnız avtomatlaşdırılmış prosese əsaslanan qərara tabe olmamaq hüququ

Yaşadığınız əraziyə və şəraitə əsasən hüquqlarınızın nə ola biləcəyini müəyyən etmək üçün, zəhmət olmasa aşağıdakı xüsusi mühakimə hüququna nəzər yetirə bilərsiniz. Məxfilik Siyasətinə

bütün qanun və qaydalar daxil deyildir, daima yenilənir. Lakin, bu Məxfilik Siyasətində göstərilməyən mühakimə hüququnda məxfi qayda və qanunlara əməl edirsinizsə, bizimlə əlaqə saxlayın və qanun çərçivəsində qaydalara mümkün qədər əməl edəcəyik. FLP, aşağıdakı bütün məxfilik qanun və qaydalara əməl etmək üçün minimum tələblərə cavab verməyə bilər, lakin sizin rahatlığınız və məlumatlanmağınız burada qeyd olunmuşdur.

Şəxsi məlumatlarınızı ləğv etməklə bağlı sorğu göndərsəniz və bu məlumatlar satın aldığınız məhsul və ya xidmətlər üçün zəruridirsə, bu tələbiniz yalnız qanuni ticarət məqsədlərimiz və ya qanuni və ya müqavilə üzrə qeydiyyat aparmaq üçün satın alınan və ya lazım olan xidmətlər üçün artıq lazım olmadığı ölçüdə həyata keçiriləcəkdir.

**Uşaqlar üçün Online Məlumat Siyasəti**

FLP 18 yaşına çatmamış şəxslərin istifadəsini nəzərdə tutmur. 18 yaşından aşağı şəxslərə məlumat vermirik və onlardan məlumat toplamırıq və internet səhifəmizdə toplanan məlumatlar (qeydiyyat, sifariş, marketinq seçimləri və ünsiyyət daxil olmaqla, ancaq məhdud olmamaq şərtilə) 18 yaşdan aşağı şəxslər üçün uyğun deyildir və istifadə olunmamalıdır.

**Ümumi Məlumatların Qorunması Qaydaları**

ÜMQQ ilə əlaqəli yuxarıdakı məxfilik öhdəliklərinə əlavə olaraq, FLP yüksək müştəri xidmətləri ilə təmin etməyi, şəxsi məlumatlarınızı qorumağı və məxfilik siyasətinizə hörmətlə yanaşmağı öhdəsinə götürür. Əgər siz Avropa İqtisadi Bölgəsinin (EEA) sakinisinizsə və şəxsi məlumatlarınızı Ümumi Məlumatın Qoruma Qaydasına (GDPR) uyğun olaraq qoruyub saxladığımıza inanırsınızsa hər hansı bir şikayət və ya məlumat tələbi ilə bizimlə əlaqə saxlaya bilərsiniz. Əlavə olaraq, hər hansı sualınız varsa, FLP-nin şəxsi məlumatlarınızı istifadə etməsindən və ya etdiyiniz şikayət və ya tələbinizə baxılmasından narazısınızsa, nəzarət orqanına şikayət etmə haqqına sahibsiniz.

Bununla bağlı əlaqə saxlamaq və ətraflı məlumat əldə etmək üçün Azərbaycandakı müvafiq nəzarət orqanına müraciət edə bilərsiniz.

**2018 Kaliforniya İstehlakçı Məxfiliyi Qanunu (KİMQ – Kaliforniya) və 2020 Kaliforniya Məxfilik Haqları Qanunu (KMHQ – Kaliforniya)**

Yuxarıda göstərilən məxfilik öhdəliklərinə əlavə olaraq, KİMQ/KMHQ aşağıdakı üstünlükləri təmin edir.

Saxlama müddəti: Ümumi qayda ondan ibarətdir ki, bütün FLP qeydlərinin qanunla tələb olunduğu və ya FLP-nin razılığı ilə xüsusi olaraq dəyişdirilmiş hallar istisna olmaqla, 10 (on) illik saxlama müddəti var.

Forever İş Sahibləri

| Element | Saxlama Müddəti |
|---|---|
| Forever İş Sahibləri üçün Şirkət Qaydaları və Prosedurlar | Davamlı |

| | |
|---|---|
| Forever İş Sahibləri Təqdir Sənədləri (Məs: təqdir nişanı qeydləri və bonusa haqq qazanma qeydləri) | Distribütorluğun dayandırılmasından etibarən 10 il |
| Forever İş Sahibi qeydiyyat forması | Distribütorluğun dayandırılmasından etibarən 10 il |
| Satış fakturaları | Satış tarixindən etibarən 10 il |

Şəxsi məlumatların əldə edilməsini və silməsini tələb etmək hüququ: Kaliforniya İstehlakçının Məxfiliyi Qanunu ilə FLP tərəfindən şəxsi məlumatların toplanması ilə bağlı məlumat tələb etmək, şəxsi məlumatlarınıza daxil olmaq və ya silmək hüququna sahibsiniz. Məlumat seçimlərinizdən asılı olaraq müəyyən xidmətlər məhdud və ya mümkünsüz ola bilər.

Son on iki (12) ayda şəxsi məlumatlarınızı toplamağımız və istifadə etməyimizlə bağlı müəyyən məlumatları sizə bildirməyimizi tələb etmək hüququna sahib ola bilərsiniz. Təsdiq olunan istehlakçı tələbinizi təsdiq etdiyimizdə sizə aşağıdakı açıqlamaları verəcəyik:

- Sizin haqqınızda topladığımız şəxsi məlumat kateqoriyaları.
- Bu şəxsi məlumatları toplamaq üçün iş və ya kommersiya məqsədimiz.
- Bu şəxsi məlumatları paylaşdığımız üçüncü şəxslərin kateqoriyaları.
- Sizin haqqınızda topladığımız müəyyən şəxsi məlumatlar (məlumatın daşınması tələbi də deyilir)

Bizim və ya xidmət təminatçıları üçün vacib olduğu təqdirdə məlumatı ləğv etmə tələbini rədd edə bilərik, Məs:

- Şəxsi məlumatları topladığımız prosesi başa çatdırmaq, tələb etdiyiniz bir məhsul və ya xidməti təmin etmək, sizinlə davam edən iş kontekstində tədbirli şəkildə öncədən planlaşdırılan tədbirləri reallaşdırmaq və ya başqa bir formada sizinlə müqaviləmizi yerinə yetirmək
- Təhlükəsizliklə bağlı hadisələri aşkarlamaq, pis niyyətli/qəsdli, aldadıcı, hiyləli, və ya qanundan kənar fəaliyyətlərə qarşı mübarizə aparmaq və ya bu cür fəaliyyətlərdən məsuliyyətli olanları məhkəməyə vermək.
- Fikir azadlığından istifadə etmək, başqa bir istehlakçının fikir azadlığı haqqlarını istifadə etmə haqqını təmin etmək və ya qanunla nəzərdə tutulmuş başqa bir haqqdan istifadə etmək.
- Bizimlə qurduğunuz münasibətə əsaslanaraq istehlakçı gözləntilərinə əsaslı şəkildə uyğun gələn yalnız daxili istifadələri aktivləşdirin.
- Qanun ilə müəyyən olunmuş hökmə riayət etmək.
- Verdiyiniz kontekstə uyğun olan məlumatların digər daxili və qanuni çərçivədə istifadəsi.

Şəxsi Məlumatların Satılmaması: Bu məxfilik bildirişinin qüvvəyə minmə tarixindən on iki ay (12) əvvəl FLP istehlakçıların şəxsi məlumatlarını satmamışdır, çünki bu şərtlər Kaliforniya İstehlakçının Məxfiliyi Siyasəti ilə müəyyən edilmişdir.

Ayrıseçkiliyin Olmaması: FLP heç bir istehlakçıya KİMQ/KMHQ çərçivəsində hüquqlarını həyata keçirdiyinə görə ayrıseçkilik etməz.

Təsdiq olunan hər hansı bir istehlakçının tələbində yalnız bir il müddətində iki dəfə giriş və ya məlumatın daşınması həyata keçirilə bilər. Təsdiq olunan istehlakçı tələbi:

- Haqqında şəxsi məlumatlar topladığımız şəxs və ya məsul bir təmsilçi olduğunuzu təsdiqləməmizə icazə verən kifayət qədər məlumatı təmin etməlidir.
- Tələbinizi doğru anlamağımız, dəyərləndirməyimiz və cavablandırmağımız üçün ətraflı açıqlama verilməlidir.

Şəxsiyyətinizi və ya sorğu göndərmə haqqınızı tədiqləməsək və şəxsi məlumatların sizə aid olduğunu təsdiqləməsək, tələbinizə cavab verilməyəcək və ya sizə şəxsi məlumatlarınızı verməyəcəyik.

**Virciniya İstehlakçı Məlumatlarının Qorunması Qanunu (VİMQQ – Virciniya)**

Yuxarıdakı məxfilik öhdəliklərinə əlavə olaraq FLP, VİMQQ çərçivəsində şəxsi məlumatların toplanması, saxlanması, istifadə olunması ilə bağlı üzərinə götürdüyü məsuliyyəti yerinə yetirməyi öhdəsinə götürür. VİMQQ sizə 6 əsas hüquq təqdim edir.

**Giriş Hüququ.** Hər hansı bir nəzarətçinin sizin şəxsi məlumatlarınızı emal edib-etmədiyini yoxlamaq və həmin məlumatlara daxil olmaq hüququnuz vardır.

**Düzəliş etmək hüququ.** Şəxsi məlumatlarınızın xarakterini və emalı məqsədini nəzərə alaraq şəxsi məlumatlarınızda olan hər hansı yanlışlığı düzəltmək hüququnuz vardır.

**Ləğv etmək hüququ.** Tərəfinizdən təmin edilən və ya haqqınızda əldə edilən şəxsi məlumatları ləğv etmək hüququnuz vardır.

**Məlumatların daşınması hüququ:** Daha əvvəl hər hansı nəzarətçiyə təqdim etdiyiniz şəxsi məlumatlarınızın sürətini daşınan və texniki cəhətdən mümkün olan dərəcədə asanlıqla istifadə oluna bilən formatda əldə etmək hüququnuz vardır, bu da məlumatların emal prosesində maneəsiz başqa nəzarətçiyə ötürülməsinə imkan yaradır.

**İmtina etmək:** Reklam etmək hədəfi, şəxsi məlumatların satışı və profil yaratmaq məqsədilə şəxsi məlumatların emal edilməsindən imtina etmək hüququnuz vardır.

**Şikayət etmək hüququ:** Sonda, FLP münasib zaman aralığında tələbinizi yerinə yetirə bilməsə, məhkəməyə şikayət etmək hüququnuz vardır.

Sizə aid şəxsi məlumatlara sorğu göndərmək və təsdiqləmək üçün şəxsiyyətinizi doğrulaya bilməsək, sizin sorğunuzu cavablandıra və şəxsi məlumatlarınız ilə təmin edə bilmərik. Zəhmət olmasa, nəzərə alın ki, yuxarıda qeyd olunan hüquqlar mütləq deyildir və qüvvədə olan qanunvericiliyə əsasən, istisnalar tətbiq edildiyi hallarda sorğulardan imtina etmək hüququmuz vardır.

**Kolorado Məxfilik Qanunu (KoloMQ – Kolorado)**

Yuxarıdakı məxfilik siyasətinə əlavə olaraq, FLP KoloMQ çərçivəsində şəxsi məlumatların toplanması, saxlanması, istifadə olunması və digər formada prosesə alınması ilə bağlı məsuliyyəti yerinə yetirməyi öhdəsinə götürür. KoloMQ Kolorado əhalisini müdafiə edir və onlara şəxsi

məlumatları ilə bağlı müəyyən hüquqlar verir. Xüsusilə, KoloPQ istehlakçılar məlumata nəzarət edənlərə aşağıda göstərilən məqsədlərlə şəxsiyyəti təsdiqlənmiş tələblər göndərməsinə icazə verir: (1) hədəflənmiş reklam, satış və ya profil yaratmaq üçün şəxsi məlumatların istifadə olunmasından imtina etmək; (2) nəzarətçinin onların şəxsi məlumatlarından istifadə edib etmədiyini müəyyənləşdirmək və həmin məlumatlara daxil olmaq; (3) hər hansı istehlakçının şəxsi məlumatlarında olan səhvləri düzəltmək; (4) istehlakçı ilə bağlı şəxsi məlumatları silmək; və (5) texniki cəhətdən mümkün olarsa, məlumatların bir nüsxəsini portativ şəkildə əldə etmək.

Sizə aid şəxsi məlumatlara sorğu göndərmək və təsdiqləmək üçün şəxsiyyətinizi doğrulaya bilməsək, sizin sorğunuzu cavablandıra və şəxsi məlumatlarınız ilə təmin edə bilmərik. Zəhmət olmasa, nəzərə alın ki, yuxarıda qeyd olunan hüquqlar mütləq deyildir və qüvvədə olan qanunvericiliyə əsasən, istisnalar tətbiq edildiyi hallarda sorğulardan imtina etmək hüququmuz vardır.

**Yuta İstehlakçı Məxfiliyi Qanunu (YİMQ – Yuta)**

Yuxarıdakı məxfilik siyasətinə əlavə olaraq, FLP, YİMQ çərçivəsində şəxsi məlumatların toplanması, saxlanması, istifadə olunması və digər formada prosesə alınması ilə bağlı məsuliyyəti yerinə yetirməyi öhdəsinə götürür. YİMQ çərçivəsində, Yuta istehlakçıları aşağıdakı hüquqlara sahibdir: (1) məlumatların istifadə olunması prosesini bilmək və ya təsdiqləmək; (2) şəxsi məlumatlara giriş haqqı əldə etmək; (3) şəxsi məlumatların bir nüsxəsini portativ və asan istifadə olunacaq formatda əldə etmək; (4) şəxsi məlumatları silmək; (5) hədəflənmiş reklam və şəxsi məlumatlardan imtina etmək; və (6) YİMQ çərçivəsində istehlakçı hüquqlarının həyata keçirilməsi nəticəsində ayrı-seçkiliyə məruz qalmamaq.

Sizə aid şəxsi məlumatlara sorğu göndərmək və təsdiqləmək üçün şəxsiyyətinizi doğrulaya bilməsək, sizin sorğunuzu cavablandıra və şəxsi məlumatlarınız ilə təmin edə bilmərik. Zəhmət olmasa, nəzərə alın ki, yuxarıda qeyd olunan hüquqlar mütləq deyildir və qüvvədə olan qanunvericiliyə əsasən, istisnalar tətbiq edildiyi hallarda sorğulardan imtina etmək hüququmuz vardır.

**Konnektikut Məlumatların Məxfiliyi Qanunu (KMMQ – Konnektikut)**

Yuxarıdakı məxfilik siyasətinə əlavə olaraq, FLP, KMMQ çərçivəsində şəxsi məlumatların toplanması, saxlanması, istifadə olunması və digər formada prosesə alınması ilə bağlı məsuliyyəti yerinə yetirməyi öhdəsinə götürür. KMMQ-yə əsasən, Konnektikut istehlakçıları aşağıdakı hüquqlara sahibdir:

**Giriş:** FLP-nin şəxsi məlumatlarınızı istifadə edib etmədiyini yoxlamaq və əlavə olaraq, bu əməliyyatların hər hansı ticarət sirrini ortaya çıxarmadığı müddətcə bu şəxsi məlumatları əldə etmək hüququna sahibsiniz.

**Düzəliş:** Məhdudiyyətlər nəzərə alınaraq sizin şəxsi məlumatlarınızda hər hansı səhvi düzəltmək hüququnuz vardır.

**Silmə:** Tərəfinizdən təmin edilən və ya başqası tərəfindən verilən şəxsi məlumatları silmək hüququna sahibsiniz.

**Məlumatları Ötürmə:** Texniki cəhətdən mümkün olduğu halda və FLP-nin hər hansı ticarət sirrini açmasını tələb etmədiyi təqdirdə şəxsi məlumatlarınızı ötürə biləcəyiniz bir nüsxəsini əldə etmək haqqınız vardır.

**Müəyyən məlumatların istifadəsindən imtina etmə:** Sizinlə bağlı rəsmi və ya buna bənzər mühüm nəticələri ortaya çıxaran avtomatik qərarlarla əlaqəli, FLP-nin də etmədiyi (i) hədəflənmiş reklam, (ii) şəxsi məlumatların satılması və ya (iii) profil yaratmaq məqsədilə şəxsi məlumatların istifadəsindən imtina etmək hüququnuz vardır.

Sizə aid şəxsi məlumatlara sorğu göndərmək və təsdiqləmək üçün şəxsiyyətinizi doğrulaya bilməsək, sizin sorğunuzu cavablandıra və şəxsi məlumatlarınız ilə təmin edə bilmərik. Zəhmət olmasa, nəzərə alın ki, yuxarıda qeyd olunan hüquqlar mütləq deyildir və qüvvədə olan qanunvericiliyə əsasən, istisnalar tətbiq edildiyi hallarda sorğulardan imtina etmək hüququmuz vardır.

## İndiana İstehlakçı Məlumatlarının Qorunması Qanunu (İİMQQ – İndiana)

Yuxarıdakı məxfilik siyasətinə əlavə olaraq, FLP, İİMQQ çərçivəsində şəxsi məlumatların toplanması, saxlanması, istifadə olunması və digər formada prosesə alınması ilə bağlı məsuliyyəti yerinə yetirməyi öhdəsinə götürür. İİMQQ İndiana əhalisini müdafiə edir və onlara şəxsi məlumatları ilə bağlı müəyyən hüquqlar verir. İİMQQ xüsusi olaraq, İndiana əhalisini aşağıdakı hüquqlarla təmin edir: (1) giriş hüququ, (2) düzəliş etmək hüququ, (3) məlumatların ötürülməsi hüququ, (4) silmə hüququ və (5) hədəflənmiş reklamdan imtina etmək hüququ. İİMQQ-ya əsasən FLP sizin icazəniz əsasında bəzi məlumatları istifadə edə bilər. Lakin, bu hüquqlar bəzi hallarda məhdudlaşdırılır və FLP sizin tələbinizə və qanun çərçivəsindəki öhdəliklərə görə yerinə yetirəcəkdir.

Sizə aid şəxsi məlumatlara sorğu göndərmək və təsdiqləmək üçün şəxsiyyətinizi doğrulaya bilməsək, sizin sorğunuzu cavablandıra və şəxsi məlumatlarınız ilə təmin edə bilmərik. Zəhmət olmasa, nəzərə alın ki, yuxarıda qeyd olunan hüquqlar mütləq deyildir və qüvvədə olan qanunvericiliyə əsasən, istisnalar tətbiq edildiyi hallarda sorğulardan imtina etmək hüququmuz vardır.

## Ayova İstehlakçı Məlumatlarının Qorunması Qanunu (AİMQQ – Ayova)

Yuxarıdakı məxfilik siyasətinə əlavə olaraq, FLP, AİMQQ çərçivəsində şəxsi məlumatların toplanması, saxlanması, istifadə olunması və digər formada prosesə alınması ilə bağlı məsuliyyəti yerinə yetirməyi öhdəsinə götürür. AİMQQ Ayova əhalisini müdafiə edir və onlara şəxsi məlumatları ilə bağlı müəyyən hüquqlar verir. AİMQQ xüsusi olaraq, Ayova əhalisini aşağıdakı hüquqlarla təmin edir: (1) giriş hüququ, (2) məlumatların ötürülməsi hüququ, (3) silmə hüququ və (4) şəxsi məlumatların paylaşmasından imtina etmək hüququ. Lakin, bu hüquqlar bəzi hallarda məhdudlaşdırılır və FLP sizin tələbinizə və qanun çərçivəsindəki öhdəliklərə görə yerinə yetirəcəkdir.

Sizə aid şəxsi məlumatlara sorğu göndərmək və təsdiqləmək üçün şəxsiyyətinizi doğrulaya bilməsək, sizin sorğunuzu cavablandıra və şəxsi məlumatlarınız ilə təmin edə bilmərik. Zəhmət

olmasa, nəzərə alın ki, yuxarıda qeyd olunan hüquqlar mütləq deyildir və qüvvədə olan qanunvericiliyə əsasən, istisnalar tətbiq edildiyi hallarda sorğulardan imtina etmək hüququmuz vardır.

**Montana İstehlakçı Məlumatlarının Qorunması Qanunu (MTİMQQ – Montana)**

Yuxarıdakı məxfilik siyasətinə əlavə olaraq, FLP, MTİMQQ çərçivəsində şəxsi məlumatların toplanması, saxlanması, istifadə olunması və digər formada prosesə alınması ilə bağlı məsuliyyəti yerinə yetirməyi öhdəsinə götürür. MTİMQQ Montana əhalisini müdafiə edir və onlara şəxsi məlumatları ilə bağlı müəyyən hüquqlar verir. MTİMQQ xüsusi olaraq, Montana əhalisini aşağıdakı hüquqlarla təmin edir: (1) giriş hüququ, (2) düzəliş etmək hüququ, (3) ləğv etmək hüququ, (4) məlumatların ötürülməsi hüququ, (5) ayrı-seçkiliyə məruz qalmama hüququ və (6) şəxsi məlumatların satışı, hədəflənmiş reklam və ya "istehlakçı ilə bağlı rəsmi və ya ona bənzər mühüm nəticələri ortaya çıxaran avtomatik qərarların davamlılığı üçün" profil yaratmaqdan imtina etmək hüququ. Lakin, bu hüquqlar bəzi hallarda məhdudlaşdırılır və FLP sizin tələbinizə və qanun çərçivəsindəki öhdəliklərə görə yerinə yetirəcəkdir.

Sizə aid şəxsi məlumatlara sorğu göndərmək və təsdiqləmək üçün şəxsiyyətinizi doğrulaya bilməsək, sizin sorğunuzu cavablandıra və şəxsi məlumatlarınız ilə təmin edə bilmərik. Zəhmət olmasa, nəzərə alın ki, yuxarıda qeyd olunan hüquqlar mütləq deyildir və qüvvədə olan qanunvericiliyə əsasən, istisnalar tətbiq edildiyi hallarda sorğulardan imtina etmək hüququmuz vardır.

**Tennessi Məlumatların Qorunması Hüququ (TMQH – Tennessi)**

Yuxarıdakı məxfilik siyasətinə əlavə olaraq, FLP, TMQH çərçivəsində şəxsi məlumatların toplanması, saxlanması, istifadə olunması və digər formada prosesə alınması ilə bağlı məsuliyyəti yerinə yetirməyi öhdəsinə götürür. TMQH Tennessi əhalisini müdafiə edir və onlara şəxsi məlumatları ilə bağlı müəyyən hüquqlar verir. TMQH xüsusi olaraq, Montana əhalisini aşağıdakı hüquqlarla təmin edir: (1) giriş hüququ, (2) düzəliş etmək hüququ, (3) ləğv etmək hüququ, (4) məlumatların ötürülməsi hüququ, (5) məlumatların açıqlanması hüququ (3-cü tərəfə məlumatların paylaşılması ilə əlaqədar) və (6) şəxsi məlumatların satılması hüququndan imtina etmək. Lakin, bu hüquqlar bəzi hallarda məhdudlaşdırılır və bunu FLP, sizin tələbinizə və qanun çərçivəsindəki öhdəliklərə görə yerinə yetirəcəkdir.

Sizə aid şəxsi məlumatlara sorğu göndərmək və təsdiqləmək üçün şəxsiyyətinizi doğrulaya bilməsək, sizin sorğunuzu cavablandıra və şəxsi məlumatlarınız ilə təmin edə bilmərik. Zəhmət olmasa, nəzərə alın ki, yuxarıda qeyd olunan hüquqlar mütləq deyildir və qüvvədə olan qanunvericiliyə əsasən, istisnalar tətbiq edildiyi hallarda sorğulardan imtina etmək hüququmuz vardır.

**Texas Məlumatların Məxfiliyi və Təhlükəsizliyi Qanunu (TMMTQ – Texas)**

Yuxarıdakı məxfilik siyasətinə əlavə olaraq, FLP, TMMTQ çərçivəsində şəxsi məlumatların toplanması, saxlanması, istifadə olunması və digər formada prosesə alınması ilə bağlı məsuliyyəti yerinə yetirməyi öhdəsinə götürür. TMMTQ Texas əhalisini müdafiə edir və onlara şəxsi məlumatları ilə bağlı müəyyən hüquqlar verir. Xüsusilə, Texas istehlakçıları aşağıda göstərilənləri həyata keçirmək üçün təsdiq olunmuş sorğular təqdim edə bilərlər:

Şəxsi məlumatlarınızın FLP tərəfindən istifadə olunub olunmamasını **təsdiq etmək**.

Şəxsi məlumatlarınıza **giriş.**

Şəxsi məlumatlarınızda səhvləri **düzəltmək.**

Tərəfinizdən təmin edilən və ya başqası tərəfindən verilən şəxsi məlumatları **silmək.**

FLP-yə daha əvvəl təqdim etdiyiniz şəxsi məlumatlarınızın bir **nüsxəsini əldə etmək.**

Şəxsi məlumatlarınızın hədəflənmiş reklam, sizə aid şəxsi məlumatların satılması və ya profil yaratmaq məqsədilə istifadəsindən **imtina etmək.**

Sizə aid şəxsi məlumatlara sorğu göndərmək və təsdiqləmək üçün şəxsiyyətinizi doğrulaya bilməsək, sizin sorğunuzu cavablandıra və şəxsi məlumatlarınız ilə təmin edə bilmərik. Zəhmət olmasa, nəzərə alın ki, yuxarıda qeyd olunan hüquqlar mütləq deyildir və qüvvədə olan qanunvericiliyə əsasən, istisnalar tətbiq edildiyi hallarda sorğulardan imtina etmək hüququmuz vardır.

**Oreqon İstehlakçı Məxfiliyi Qanunu (OİMQ – Oreqon)**

Yuxarıdakı məxfilik siyasətinə əlavə olaraq, FLP, OİMQ çərçivəsində şəxsi məlumatların toplanması, saxlanması, istifadə olunması və digər formada prosesə alınması ilə bağlı məsuliyyəti yerinə yetirməyi öhdəsinə götürür. OİMQ Tennessi əhalisini müdafiə edir və onlara şəxsi məlumatları ilə bağlı müəyyən hüquqlar verir. OİMQ xüsusi olaraq, Oreqon əhalisini aşağıdakı hüquqlarla təmin edir: (1) şəxsi məlumatların istifadə olunub olunmaması və hansı kateqoriya üzrə istifadə olunduğunu təsdiqləmək hüququ, (2) bütün şəxsi məlumatlarınızın bir nüsxəsini əldə etmək hüququ, (3) şəxsi məlumatlarınızdakı səhvləri düzəliş etmək hüququ, (4) Həm FLP-nin başqa mənbələrdən əldə etdiyi, həm də digər törəmə məlumatların daxil olduğu şəxsi məlumatlarınızı ləğv etmək hüququ: (5) FLP-nin şəxsi məlumatlarınızı hədəflənmiş reklam, satış və ya profil yaratmaq məqsədilə istifadə etməsini ləğv etmək hüququ; (6) şəxsi məlumatlarınızın istifadə olunması üçün FLP-yə verilən razılığı ləğv etmək hüququ, (7) istehlakçının məxfilik hüququnun istifadə olunması səbəbilə ayrı-seçkiliyə məruz qalamaq hüququ, (8) FLP-nin yuxarıdakı haqqlardan birini istifadə etmə tələbindən imtina etməsinə etiraz etmək hüququ.

Bundan əlavə, OİMQ istehlakçıların hər hansı bir nəzarətçinin şəxsi məlumatlarını açıqladığı “xüsusi üçüncü tərəflərin” (istehlakçı, nəzarətçi, prosessor, nəzarətçi) siyahısını tərtib etməyə icazə verir.

Sizə aid şəxsi məlumatlara sorğu göndərmək və təsdiqləmək üçün şəxsiyyətinizi doğrulaya bilməsək, sizin sorğunuzu cavablandıra və şəxsi məlumatlarınız ilə təmin edə bilmərik. Zəhmət olmasa, nəzərə alın ki, yuxarıda qeyd olunan hüquqlar mütləq deyildir və qüvvədə olan qanunvericiliyə əsasən, istisnalar tətbiq edildiyi hallarda sorğulardan imtina etmək hüququmuz vardır.

**Mübahisəli Məsələlərin Həlli Siyasəti**

FLP-yə şəxsi məlumat bildirməyi, internet səhifəmizdən istifadə etməyi və ya işimizə qoşulmağı seçsəniz, istifadəniz və ziddiyyətli məxfilik mövzusunda hər hansı bir anlaşmazlıq Məxfilik Siyasətinə və linkə daxil olaraq buradan Mübahisəli Məsələlərin Həlli Siyasətində göstərilən prosedura tabedir.

**Öhdəliyin Ləğv Edilməsi və Məhdudlaşdırılması**

Bu internet səhifəsi "olduğu kimi" prinsipinə əsaslanır. FLP, bu internet səhifəsi və ya bu səhifədə təqdim olunan hər hansı məlumat ilə bağlı olaraq ticarət zəmanəti, konkret bir məqsədə uyğunluq, təhlükəsizlik, doğruluq, tamamlama, faydalılıq daxil olmaqla, ancaq bunlarla kifayətlənmədən açıq və ya nəzərdə tutulmuş şəkildə zəmanət vermir. Bu internet səhifəsindən istifadə etməyinizlə məlumatların itməsi daxil bütün məsuliyyət və itirmə riski Sizə aiddir. Virus və digər zərərli maddələrin daxil olmasının qarşısını almaq üçün ehtiyatlı addımlar atsaq da, bu internet səhifəsinin virus və ya digər potensial zərərli maddələrdən tam olaraq qorunduğuna zəmanət vermirik. Bu internet səhifəsinin fasiləsiz və ya səhvsiz olacağına zəmanət vermirik və bu səhifənin məzmununda və ya materialında gecikmələr, əksikliklər, fasilələr və ya qeyri-dəqiqlik ola bilər. Səhifədə göstərilən məlumatlarda hər hansı xəta, əksiklik və ya çatışmazlığa görə məsuliyyət daşımırıq.

**Məsuliyyətdən İmtina**

FLP-nin bu internet səhifəsindən (vəzifəli şəxslər, idarəçilər və işçilər daxil olmaqla və bununla kifayətlənməmək şərtilə) və ya hər hansı digər hiper bağlantılı internet səhifəsindən istifadə etməyinizdən və ya etməməyinizdən qaynaqlanan və ya hər hansı şəkildə əlaqəli və ya bu internet səhifəsindən istifadə edərək əldə olunan məlumat və ya malların, əgər varsa, itirilmiş mənfəət, işin dayandırılması, proqram və ya digər məlumatların itirilməsi, birbaşa və ya dolayı nəticə olaraq ortaya çıxan və ya xüsusi hər hansı bir iddia, zərər və ya xərcə görə məsuliyyət daşəmayacağımızı qəbul edirsiniz. Buna əlavə olaraq, müstəqil tərəfdaş olduqlarına görə FBO-ların məxfiliyin pozulması ilə əlaqədar aparılan fəaliyyətlər daxil, ancaq bunlarla məhdudlaşmayan bu internet səhifəsi ilə əlaqədar digər şəxlərin davranışlarına görə məsuliyyət daşımayacağımızı qəbul edirsiniz. Bu kimi zərərlərin ola bilmə ehtimalı olsa belə, müqavilə, hüquq pozuntusu və digər əsaslara görə bütün tələblərdən imtina etmiş olursunuz. Bəzi hökmlər məsuliyyətin məhdudlaşdırılmasına və ya istisna edilməsinə icazə vermir, buna görə də yuxarıda göstərilən məhdudiyyətlərin hamısı sizə aid oluna bilməz.

**Təzminat**

FLP-ni (vəzifəli şəxslər, idarəçilər və işçilər daxil olmaqla və bununla kifayətlənməmək şərtilə) bu internet səhifəsindən istifadəyə görə yaranan və ya müəyyən bir səbəbdən meydana gələn vəkillik haqqı daxil olmaqla bütün iddia və məsrəfləri ödəməsinə razılıq verirsiniz. Bu, şəxsi məlumatlar və əqli mülkiyyət hüquqları daxil olmaqla başqalarının haqqlarına müdaxilə etməyinizdən meydana gələn məsuliyyəti özündə cəmləyir, lakin bununla məhdudlaşmır.

**Vəziyyətə görə Bölünmə**

Bu Məxfilik Siyasətinin hər hansı bölməsi etibrasız və ya icraedilməz qəbul edilərsə, müzakirə olunan bölmə tərəflərin ilkin niyyətlərini göstərmək üçün qüvvədə olan qanuna uyğun şərh olunacaq və qalan bölmələr tam olaraq qüvvədə qalacaqdır.

**Bizimlə Əlaqə Saxlayın**

Məxfilik Siyasəti ilə bağlı hər hansı sual, təklif və iradlarınız vardırsa, flpaz@foreverliving.az saytından və ya +994 12 465 43 96 nömrəsi ilə bizimlə əlaqə saxlayın.

Sizə etibarlı bir təcrübə yaşatmaq üçün gələn sms-ləri aktiv olaraq izləyir və cavablandırırıq. Bütün tələb, sorğu və narahatlıqlara qeyd edilən müddətdə cavab verəcəyik. Əgər cavabımızdan razı deyilsinizsə, şikayətinizi səlahiyyətli şəxsə yönləndirə bilərsiniz.

Məlumatın daşınması tələbi üçün şəxsi məlumatlarınızı təmin etmək məqsədilə asan istifadə oluna bilən və məlumatları bir entity-dən digər birinə köçürmənizə icazə verən bir format seçəcəyik.

Məxfiliklə bağlı hər hansı bir şikayət və ya narahatlığa ədalətli bir həll yolu tapmaq üçün Sizinlə birlikdə çalışırıq. Məxfiliklə bağlı hər hansı sualın yarandığı təsdiq olunduğu təqdirdə ölkə məlumat qoruma bölməsində səlahiyyətli şəxslərlə ortaq şəkildə işləyirik.

**Məxfilik Siyasətinə Edilən Dəyişikliklər**

Bu Məxfilik Siyasətini hər zaman dəyişdirmə hüququna sahibik. Məxfilik Siyasətinə dəyişiklik etməyə qərar versək, bu dəyişiklikləri bu Məxfilik Siyasəti və uyğun gördüyümüz digər yerlərdə yayınlayacağıq, bununla hansı məlumatı topladığımızı, ondan necə istifadə etdiyimizi və hansı şərtlərlə paylaşdığımızdan xəbərdar olursunuz. Məxfilik Siyasətində mühüm dəyişikliklər olunduğu təqdirdə, biz sizə elektron poçt və ya ana səhifəmizdəki bildiriş vasitəsilə məlumat verəcəyik. Məxfilik Siyasətində edilən hər hansı dəyişiklik ilə razılaşmırsınızsa, hesabınızı ləğv edə və ya xidmətlərimizdən istifadəni dayandıra bilərsiniz.